*Səbail rayonu*

# "Narkotiklərlə mübarizə günü"nə həsr olunmuş tədbir

Yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, zərərli adətlərdən uzaqlaşdırılması və narkomaniyaya qarşı aparılan mübarizənin səmərəliliyinin artırılması məqsədi ilə həyata keçirilən işlər hər zaman Səbail Rayon İcra Hakimiyyətinin diqqət mərkəzində olmuşdur. Rayon icra hakimiyyətində fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə rayon Komissiyası tərəfindən bu istiqamətdə mütəmadi olaraq toplantılar, görüşlər və kütləvi tədbirlər təşkil olunur, bəşəriyyət üçün ən ciddi bəlalardan biri olan narkomaniyanın fəsadları yeniyetmə və gənclərə izah olunur.

Rayonda təşkil olunan növbəti belə tədbir - BMT-nin "Narkotiklərlə mübarizə günü"nə həsr olunmuş "dəyirmi masa" olmuşdur. Səbail Rayon İcra Hakimiyyəti, Bakı şəhər və Səbail rayon Gənclər və İdman idarələrinin, rayon polis idarəsi Yetkinlik Yaşına Çatmayanlarla İşin Təşkili və Narkotiklərlə Mübarizə bölmələrinin, Bakı Şəhər Narkoloji Dispanserinin, yerli bələdiyyələrin və gənclərin nümayəndələrinin iştirakı ilə keçirilən "dəyirmi masa"nı Səbail rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Mürsəlov açaraq müasir dövrün ən qorxulu fəsadlarından olan narkomaniya, onun fəsadları barədə danışmışdır. Bildirmişdir ki, bəşəriyyət üçün ən böyük bəlalardan olan narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizə bu gün aktual xarakter daşıyır. Xüsusi ilə gənclər üçün böyük təhlükə mənbəyi olan "ağ ölüm"ə qarşı həyata keçirilən genişmiqyaslı tədbirlərdə əsas məqsəd gənclərin bu bəladan uzaqlaşdırılması, onlarda sağlam həyat tərzinin təbliği, narkomaniyanın fəsadlarının nə qədər təhlükəli olduğunu izah etməkdir.



"Dəyirmi masa"da çıxış edənlər rayonda yeniyetmə və gənclərin narkomaniya və digər zərərli vərdişlərdən qorunması üçün aparılan işlər barədə məlumat verərək gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün görülməli olan işlərdən danışmışlar.

Tədbirdə iştirakçılara narkomaniyanın fəsadları ilə bağlı buklet və təbliğat materialları paylanmış, sonra gəncləri maraqlandıran çoxsaylı suallar cavablandırılmışdır.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**